**"Ədəbiyyat qəzeti" kitab müzakirələri ilə bağlı yeni rubrikaya başlayır. Məqsədimiz kitabı oxucuya daha da yaxınlaşdırmaq, onun bədii-estetik məziyyətlərini üzə çıxfarmaqdır. İlk hədəfimiz Xalq yazıçısı Anarın "Kərəm kimi" kitabıdır.**

# "Kərəm kimi" romanı - Nazim

*Müzakirədə əməkdar elm xadimi, türkoloq, filologiya elmləri doktoru, professor Tofiq Məlikli və ictimai xadim, yazıçı-dramaturq, filologiya elmləri doktoru, professor Aqşin Babayev də iştirak edir. Moderator Mətanət Vahiddir.*





**Mətanət Vahid:** - Nazim Hikmət haqqında saysız-hesabsız əsərlər yazılıb - istər Azərbaycanda, istər öz ölkəsində və bütün dünyada. Elə onlardan bir xeyli hissəsinin adını Anar romanında xatırladır; bəzilərindən bəhrələndiyini, xatirələrinə, faktlarına istinad etdiyini qeyd edir. Bu əsərlər qalereyasının rəngarəngliyində Anarın "Kərəm kimi" romanı necə boy verir, hansı cəhətləri ilə diqqət çəkir?

**Aqşin Babayev:** - Nazim Hikmət haqqında söz demək haqqı ilk növbədə Anara məxsusdur. 1927-ci ildə Nazim Hikmət Bakıya ilk dəfə gələndə Rəsul Rza ilə onlar görüşməmişdilər. Amma 30 il sonra o, yenidən Bakıya gələndə həmin dövrdən ta ömrünün sonuna qədər ən çox əlaqə saxladığı, evində qonaq olduğu, istər Bakıda, istər Moskvada dəfələrlə görüşüb söhbət etdiyi Rəsul Rza olmuşdur. Onların bir-birinə həsr etdiyi şeirlər, məqalələr var. N.Hikmət Rəsul Rzanın evinə gələndə Anar həmişə orada olub. Sonrakı illərdə də o özü Moskvada da Nazim Hikmətlə görüşüb dəfələrlə. Mən "Kərəm kimi" kitabında çox maraqlı məqamlar gördüm və bir nazimşünas kimi məni ilk növbədə valeh edən cəhət o oldu ki, bu kitab Nazim Hikmət ensiklopediyasıdır. Amma eyni zamanda, burada Cəlil Məmmədquluzadə də var, Məlik Cövdət Anday da, Oqtay Rıfat da var, Fazil Hüsnü Dağlarca da, burda mənim alim dostum, sənətinə böyük rəğbət bəslədiyim Tofiq Məliklinin portreti də var. Əziz Nesin də - yəni sözün həqiqi mənasında qamusdur. Özü də bunlar üzvi şəkildə bir-birinə bağlıdır.

Ümumiyyətlə, Anar bir tədqiqatçı kimi çox ədalətli, çox namuslu - alim haqqında mənə elə gəlir, bu sözü demək lazımdır - çox obyektiv bir alimdir. Təbii ki, mən də Nazim haqqında əsər yazanda araşdırmışam, tədqiqat aparmışam, amma Anarın diapazonu daha böyükdür: o elə kitab adları çəkib, elə məqalələrdən söz açıb ki, onlar mənə məlum deyil.

**Tofiq Məlikli:** - Aqşin müəllimlə tamamilə razıyam ki, bu kitab həqiqətən, ensiklopedik mahiyyətdədir. Sadəcə, bəzi şeylər var ki, onu biz dəqiqləşdirməliyik. Nazim haqqında bir çox kitablar yazan, onun yaradıcılığı ilə uzun illər məşğul olan bir adam olaraq deyə bilərəm ki, ölüm dahi insanları unutdurmur, əksinə, onları daha da güncəl edir, daha da böyüdür və onların imkanlarını bizə yenidən açır. Bu baxımdan, əlbəttə ki, Nazim Hikmət XX əsr üçün qiqant bir simadır və Anar ona bu kontekstdən yanaşır.

Anarın kitabda Nazim Hikmətlə bağlı sadaladığı kitablar, məxəzlər 3 səhifəyə yaxındır, heç bir əsəri unutmamağa çalışır: ən kiçik həcmli əsərlərdən böyüyünə qədər hamısını. "Çağımızın simvolu Anar" yazımda qeyd etdiyim kimi, altını çizərək vurğulayıram ki, istər yazarlar, ziyalılar, istər oxucular olsun, aramızda onun qədər mütaliə edən ikinci şəxs tanımıram. Bunu da praktikaya dayanaraq deyirəm. Onun dəfələrlə Moskvaya zəng edərək heç mənim də xəbərim olmayan kitabları istəməsi və sonra oxuyaraq mənimlə müzakirə etməsi bunları deməyimə əsas verir. Yəni ədəbiyyatın böyük kontekstdə nəbzini tuta bilən nadir adamlardandır. İlk növbədə, əlbəttə, yazıçıdır, ikinci növbədə, ədəbiyyatçıdır, ədəbiyyatşünaslığa da meyli olan bir adamdır. Əlbəttə ki, o ədəbiyyatşünas-alimlərə xas bir üslublardan fərqli üslubda yazır, çünki ilk növbədə yazıçıdır, romançıdır.

Əgər bir sənətkarın həyat və yaradıcılığı ilə məşğul olmaq istəyirsənsə, ilk növbədə oxumalı və sevməlisən, bütün qəlbinlə o yazıçını təbliğ etməyə ömrünü həsr etməlisən. Burada oturan Aqşin bəy 60 ilə yaxındır ki, həyatını Nazim Hikmətə həsr etmiş nadir insanlardandır, onun vurğunudur. Eyni sözü özüm haqqında da, Anar bəy haqqında da deyə bilərəm. Mənə elə gəlir ki, Anar Nazim Hikməti bütün yazıçılardan daha çox sevir. Bu qədər fundamental bir kitabı yazmaq üçün illərini sərf etmək lazımdır - bu, sevgisiz olmaz. O sevgi də Nazim Hikmətin böyüklüyünü, düşüncə və inanc insanı kimi həyatdakı rolunu dərk etməkdən irəli gəlir. Ona görə bu əsəri mən həmişə yüksək dəyərləndirmişəm. Bu, tərif deyil, obyektiv olaraq, verilən qiymətdir.

**Mətanət Vahid:** - "Kərəm kimi" romanının fəsilləri "boy", giriş sözü, yaxud proloq əvəzi hissə isə "Sözbaşı" adlandırılır və boylar Nazım Hikmətin misraları ilə adlandırılır. Əsərin janrı sənədli romandır və təxəyyülə yer qoyulmadan tamamən faktlara və şairin yaradıcılığına istinad edilir. Ümumiyyətlə, "Kərəm kimi" romanının tipologiyası, kompozisiyası, süjeti ilə bağlı fikirləriniz maraqlıdır.

**Aqşin Babayev:** - Bilirsiz, bu, bizim ədəbiyyatımızda tamamilə yeni bir roman növüdür.

**Tofiq Məlikli:** - "Ədəbiyyat tipi" deyək ona.

**Aqşin Babayev:** - Bu kitabın Türkiyədə çap olunan 1-ci variantı həcmcə bundan kiçik idi, mənim də "Ədəbiyyat qəzeti"ndə 2009-cu ildə onun haqqında rəyim çap olunmuşdu. Anar müəllim kitabı mənə hədiyyə edəndə düşünmüşdüm ki, xırda-xırda oxuyaram, amma inanın ki, onu birnəfəsə oxudum. Anarın üslubu çox gözəldi. Bu boyda kitabda qətiyyən lazımsız təfərrüatlara yer yoxdur. Bizim Azərbaycan yazıçılarının bir neçəsində müşahidə etdiyim teleqraf üslubu var: kiçik cümlələrlə yazmaq, artıq sözə yer verməmək. Ona görə bir içim su kimi oxunur bu kitab. Mən hazırda memuar tipli bir əsər yazıram. Anar müəllimin bu kitabı mənə müəyyən məsələlərdə kömək oldu. Fkirləşdim ki, doğrudan da belə sənədli roman yazmaq olar.

**Tofiq Məlikli:** - Anarın "Kərəm kimi" kitabı haqqında sizin qəzetdə mənim də resenziyam çap olunmuşdu və ola bilər ki, bəzi fikirlərim təkrar olsun, amma vacib məqamlar olduğuyçün təkrarında fayda var. Anar özü bu kitabı "anılar və düşüncələr romanı" deyə təqdim edir. Bunlar müxtəlif janr olduğuna görə fərqli üslublardır, onların ikisinin birləşdirilməsi ilə yeni bir tip əmələ gəlir. Bu tip haqqında onu deyim ki, mənim Fazil Hüsnü Dağlarca kitabımı Rusiyadakı tədqiqatçılar "roman-issledovaniye", yəni roman-tədqiqat kimi təqdim etdilər. Mən bu barədə düşünməmişdim. Yenidən əsəri gözdən keçirəndə gördüm ki, burada həm roman üslubu var, həm də daha çox araşdırmadır. Anar mütəvazi adamdır, ona görə də bu əsəri sadəcə anılar və düşüncələr romanı adlandırır. Əslində isə o kitab araşdırma, inceləmədir, üslub baxımından isə roman şəklində yazılmış bir əsərdir.

**Aqşin Babayev:** - Əlbəttə, bu kitab həm də tədqiqat işidir. Kitabın müsbət tərəflərindən biri Nazimlə birbaşa bağlı olan mətləblərdən əlavə, onun haqqında yazılanlarla bağlı məqalələrin kitaba salınmasıdır. Ona görə yox ki, orada mənim də kitabımla bağlı yazı var. Başlayıb Nazim Hikmətin kitablarının çapı və tərcüməsi ilə bağlı danılmaz əməyi olan Əkbər Babayevlə. Hətta Nazim Əkbər Babayevə kitabını hədiyyə edəndə "Beni bana tanıdana" deyə bir avtoqraf yazıb. Ziya paşanın sözüdür, deyir: "Şəxsin görünər rütbeyi-əqli əsərində". Kitabda Anarın "rütbeyi-əqli", ədəbi səxavəti özünü göstərir. Ümumiyyətlə, ona xas bir cəhət var: yaradıcılığında hər şeyi doğru, obyektiv dəyərləndirmək. 2002-ci ildə Türkiyədə Nazim Hikmətin yubileyi keçiriləndə mən gedə bilməmişdim. Amma faksla məruzəmi göndərmişdim və Anar müəllim onu orada oxumuşdu. O, Türkiyədən Nazim haqqında Mehmet Fuadın, Aslan Kavlakın kitablarını gətirib mənimçün. Halbuki özü də Nazim Hikmət tədqiqatçısıdır. Yaxud Rəsul Rzanın arxivində Nazimlə bağlı nə vardısa, hamısının fotosurətini mənə verdi. Mən sonra "Yüz yaşlı Nazim Hikmət" kitabını yazdım.

"Kərəm kimi" kitabı ilə bağlı altını cızaraq qeyd etmək istədiyim iki cəhət var: birinci, ədəbi yazı üslubu, lakonikliyi - hələ təfərrüatlara yer vermədən Anar bu boyda kitab yazıb. İkinci cəhət isə Əziz Nesin və Tofiq Məlikli haqqında yazdıqları. Tofiq müəllimin iki kitabını xüsusi olaraq qeyd edir. Həqiqətən, Tofiq Məliklinin "Nazim Hikmət. Poeziya və poetika"sı çox dəyərli əsərdir və Anar müəllim kitabda ona yüksək qiymət verir. Çünki çox mətləbləri Tofiq Məlikli ortaya çıxarıb: Nazim Hikmətin Türkiyədən Rumıniyaya keçməsi, orda Moskvada təqib olunması və s. Bax, bu baxımdan müəllifin ədəbi səxavəti meydana çıxır: bilmədiyi, kiminsə əsərindən oxuduğunu dürüstlüklə qeyd edir.

**Tofiq Məlikli:** - Etiraf edir. Bu, çox vacib məqamıdır. Ümumiyyətlə, ədəbiyyat adamları bir kitab çap etdikdən sonra hər şeyi bildiyini düşünür. Bunu niyə deyirəm? Anar və intuitiv olaraq mən bu kitabdan əvvəl Fazil Hüsnü Dağlarca haqqında kitabı yazarkən düşündüm ki, sırf elmi kitabın oxucusu azdır: alimlərdir və onların sayı da azdır. Mən isə istəyirdim ki, məsələn, Dağlarcanı çox adam oxusun, tanısın. Bunun üçün nə etmək lazımdır? Elə bir üslubda yazmalısan ki, həm elmi tərəfi qüvvətli olsun, eyni zamanda oxunaqlı olsun və maraq oyatsın - bu, zamanın tələbi idi. Çünki indiki internet dövründə, məlumat bolluğu zamanında insanı oxumağa məcbur etmək, xüsusi qeyd edirəm, məcbur etmək üçün onu maraqlandırmaq şərtdir. Ona görə bu janr, bu tip zamanın tələbi idi. Bilirsiz ki, bəzi şeylər yaradıcılıqda intuitiv olur. Yəni hiss edirsən, yolunu axtarırsan və özün də bilmədən görürsən ki, yazdığını müəyyən bir qəlibə yerləşdirirsən.

# Hikmət haqqında söz demək haqqı...

Anarın bu kitabı da belə bir axtarışın nəticəsidir. Burda bir təzad var: anıların, düşüncələrin romanı olmaz, roman öz strukturuna görə təxəyyülə bağlı bir şeydir. Ona görə də Anarın romanı bu axtarışların nəticəsi olaraq, roman-araşdırma kimi meydana gəlib. Bəlkə də, kitabın növbəti basqılarında müəllif istədiyi təqdirdə bu əsərin təyinatını bu şəkildə qeyd edər. Burda mütəvazilik çox böyük rol oynayır.

Bu kitab bölünür boylara. Niyə boy? "Kitabi-Dədə Qorqud"dan gələn boylardır. Bu, əlbəttə, novatorluqdur və zamanla daha da dərindən öyrəniləcək və incələnəcəkdir. Bu, hər zaman bir ziyalının dildə də güzgü tuta bilib, yəqin ki.

**Aqşin Babayev:** - Mən elə oxucu kimi deyim. Müəyyən mətləblər vardı ki, mənə məlum idi, məlum olmayanları da Anar müəllimin kitabından öyrəndim. Onun oxunaqlı olmasının səbəblərindən biri də elə budur ki, Anar müəllim çox faktlar tapıb ortaya çıxarıb. Məsələn, mən ləzzətlə oxudum və oxucu üçün bu, maraqlıdır ki, Nazimin ilk şeirlərindən biri Samiyənin pişiyinə həsr olunmuşdu. Yahya Kamal oxuyur və deyir ki, o pişiyi görmək istəyirəm. Samiyə xanım o pişiyi göstərəndə Yahya Kamal deyir ki, sən ki bu qotur pişiyi belə tərifləmisən, şair olacaqsan. Başqa bir maraqlı və Anar bunları gözəl verir kitabda. Cəlal Əsəd bəy Yahya Kamalla Cəlilə xanımı sonradan görüşdürmək istəyir, çox illər sonra - 70 yaşları olanda. Hər ay şairlərin toplandığı bir məclisə Yahya Kamalı dəvət etmək istəyəndə Cəlilə xanım onun gəlməyəcəyini deyir. Həqiqətən də Yahya Kamalı dəvət etdikləri zaman o deyir ki, Cəlilə xanım olan yerə gəlmərəm, çünki xəyallarımı pozmaq istəmirəm. Yəni onu sevdiyi zamanlardakı kimi gənc və gözəl xatırlamaq istəyir. Bu misalları gətirməkdə məqsədim odur ki, roman olaraq bu detalların, oxucuya tanış olan və olmayan fakt və xatirələrin gətirilməsi kitabı xeyli oxunaqlı və maraqlı edir. Kitabda elə faktlar var ki, hətta Nazim Hikmət tədqiqatçılarına da tanış deyil.

**Tofiq Məlikli:** - Nazim Hikməti ana vətənində - Türkiyədə uzun illər böyük bir təbəqə qəbul etməyib və "vətən xaini" adlandırıb. İdeoloji cəhətdən insanların beynini doldurublar ki, bu, kommunistdir və ona görə də vətən xainidir, vətəni qoyub qaçıb, satılıb sovetlərə, ruslara və s. Nazim Hikməti Türkiyəyə qaytarmaq və bu mürtəce, geriqalmış kəsimə həqiqəti anlatmaq baxımından da Anarın rolu çox böyükdür. Hamımızın rolu var, amma Anarın xüsusilə. Təsəvvür edin ki, Nazim Hikmətə Türkiyə vətəndaşlığı qaytarılnada dünyada birinci sevinən və baş bakana teleqraf çəkən və arxasınca da "Gözün aydın olsun, Nazim Hikmət" yazan adamın rolunu görməmək mümkün deyil. Dəfələrlə Türkiyədə, Moskvada, Azərbaycanda türk məsləkdaşlarımızla görüşlər zamanı Nazimi müdafiə edən və onu özlərinə tanıdan adamdı Anar. Həmin kitabda əks olunan Zəkəriyyə Sertellə münaqişə, Sertelin ona yanlış münasibəti və ideoloji cəhətdən müxtəlif cəbhələrdə olduğu şairlərlə görüşlərdən imtina etməyərək onları ikna etməyə çalışması... bunu hamımız edirdik, amma Anar bu işdə öncüldür. Məsəlçün, Yavuz Bülent Bakilərlə mənim 25 il bundan öncəki münaqişəm bizim aramızda düşmənçilik səviyyəsinə qədər gəlmişdi. Çünki Nazim Hikmətə münasibətdə ideoloji baxımdan biz bir-birimizə yaxın ola bilməzdik. Amma zaman dəyişir, münasibətlər də dəyişir. Bu münasibətlərin dəyişməsində "Kərəm kimi" kitabının böyük rolu var. Bu gün cümhur başkanı Nazim Hikmətin şeirlərinə müraciət edir. Bu gün ən müxalif qüvvələr Nazim Hikmətin şeirlərini oxuyaraq xalqı özünə cəlb etməyə çalışır. Kitab bu münasibətlərin dəyişməsi baxımından olduqca önəmlidir.

**Mətanət Vahid:** - Anar müəllim Nazim Hikmətin sovet rejiminə sadəcə bir təbliğat vasitəsi kimi lazım olduğunu yazır. O zamankı rejimin münasibətinə baxmayaraq, Nazimə Azərbaycanda çox fərqli, doğma münasibət var. Bunu oxucu sevgisi ilə də müəyyənləşdirmək mümkündür, bir çox tədqiqat əsərlərinin obyekti olması ilə də. Romanın "Bu yoldan 30 il öncə keçdim" adlı 2-ci boyu da Nazim Hikmətin həyatının məhz Azərbaycanla bağlı məqamları haqqındadır.

**Tofiq Məlikli:** - Bildiyiniz kimi, kitab 2 hissədən ibarətdir: Nazim Hikmət haqqında hissə və Nazimlə bağlı olan və olmayan türk dünyasının sənətkarları ilə bağlı yazılar var. Mən buna da haqq qazandırıram, çünki müəllif Nazimi sadəcə olaraq bir Türkiyə ədəbiyyatının siması olaraq görmür. Onu Azərbaycan ədəbiyyatının da bir böyük nümayəndəsi kimi görür və Çingiz Azərbaycan proletar gəncliyinin də malı oldu." Hətta bilirsiz ki, Səməd Vurğun da onun təsiri altında ilk şeirlərini sərbəst vəzndə yazırdı və onun "Hərəkət" şeiri vardı, çox qəribə bir şeir idi.

**Aqşin Babayev:** - "Mən nəfəsi benzin qoxuyan \ milyonların şairi..." Səməd Vurğunundu.

**Tofiq Məlikli:** - Nazim deyir: "Bana bak! \ Hey! \ Avanak! \ Elinden o zırıltıyı bıraksana!" Yəni hər şeyi təqlid edir Səməd Vurğun. Eyni zamanda, Rəsul Rza, Süleyman Rüstəm.

**Aqşin Babayev:** - Mikayıl Rəfili...

**Tofiq Məlikli:** - Mikayıl Rəfi-



**Aqşin Babayev: - Mən "Kərəm kimi" kitabında çox maraqlı məqamlar gördüm və bir nazimşünas kimi məni ilk növbədə valeh edən cəhət o oldu ki, bu kitab Nazim Hikmət ensiklopediyasıdır.**



**Tofiq Məlikli: - Mənə elə gəlir ki, Anar Nazim Hikməti bütün yazıçılardan daha çox sevir. Bu qədər fundamental bir kitabı yazmaq üçün illərini sərf etmək lazımdır - bu, sevgisiz olmaz. O sevgi də Nazim Hikmətin böyüklüyünü, düşüncə və inanc insanı kimi həyatdakı rolunu dərk etməkdən irəli gəlir. Ona görə bu əsəri mən həmişə yüksək dəyərləndirmişəm. Bu, tərif deyil, obyektiv olaraq, verilən qiymətdir.**

dəyişikliyə getmək yoludur. Fikir verirsinizsə, romanda sanki Nazim onu itələyir ki, sən dədə-baba dilindəki sözlərdən istifadə et. Məsələn, Nazim Hikmətin küçələrdəki İstanbulu xatırlamağından, Əkbər Babayevin yataraq İstanbul küçələrini anlatan hissəsini oxuyanda o, "küçə" yazmır, "sokak" yazaraq, ona türk ab-havası verir.

**Mətanət Vahid:** - XX əsrin rəmzi hesab etdiyi Nazim Hikmət haqqında "Kərəm kimi" romanı səviyyəsində bir əsər yazmağa müvəffəq olmuş Anar işin məsuliyyətini, ağırlığını belə çatdırır: "Nazimdən yazmaq - bütün dünyanın, illah da türk dünyasının dərd-sərindən yazmaq deməkdir." Siz hər ikiniz Nazim Hikmət haqqında dəyərli əsərlərin müəllifisiniz. Anar "Kərəm kimi" romanının əvvəlində qeyd edir ki, "Nazim Hikmətin ömrü və yaradıcılığı haqqında düşünmək - XX yüzilin əsas ictimai probemləri və qovğaları haqqında düşünməkdir." Şairin həyat və yaradıcılığını yaxından araşdıran müəlliflər və eyni zamanda, "Kərəm kimi" romanının oxucuları olaraq XX əsr Nazim Hikmətin həyatı və yaradıcılığı fonunda sizə hansısa sirlərini açıb, dövrün hansısa gizlinlərinə mübahisəli bir fakt Nazim Hikmətin babasının polyak olmasıdır. Bununla əlaqədar türk mətbuatında müxtəlif hədyanlara cavab olaraq, Anar dəlillər gətirərək sübut edir ki, onun babası qaqauzlardandır. Yaxud Nazim Hikməti vətən xaini hesab edən həmyerlilərinə sübut etməsi ki, o, xain deyil. Mən İsgəndərunda işləyəndə kitab mağazasından Nazim Hikmətin kitablarını soruşanda mənə cavab verdilər ki, bizdə vətən xaininin kitabı satıla bilməz və mən başladım bu kişiyə Nazimin şeirlərini deməyə:

*...ne kasketim kaldı senin ora işi*
*ne yollarını taşımış ayakkabım,*
*son mintanın da sırtımda paralandı çoktan,*
*Şile bezindendi.*
*Sen şimdi yalnız saçımın akında,*
*enfarktında yüreğimin,*
*alnımın çizgilerindesin memleketim,*
*memleketim,*
*memleketim...*

Bilmirlər. Şeirlərini oxuyandan sonra dost olduq, sonra mənimçün İstanbuldan kitab gətirdi. Bilirsiz ki, Yahya Kamalın Nazim Hikmətin anası Cəlilə xanıma böyük sevgisi vardı, platonik eşqdi. Bunu da bayağılaşdırmağa çalışırlar, amma

Aytmatov, Oljas Süleymenov vasitəsilə onun türk dunyasında da yayğın olduğunu göstərir.

Nazim Hikmət Azərbaycan üçün yad bir sima deyil, onun ta özüdür. Keçən əsrin 20-ci illərində formalaşan ədəbiyyatın özəyidir. Nazim Hikmət olmasaydı, Azərbaycan yeni ədəbiyyatının, xüsusilə, poeziyasının inkişaf yollarının mərhələsi mənimçün qaranlıq qalardı. Əli Nazimin 1927-ci ildə yazdığı bir məqalə var. Nazim o zaman kitabdan qabaq Süleyman Rüstəmin köməyilə "Maarif və mədəniyyət" jurnalında hər nömrədə şeirlərini çap etdirir. Bu şeirlər Azərbaycan ədəbiyyatında necə öz əksini tapır, Əli Nazim "Günəşi içirik... günəşlənirik" adlı məqaləsində yazır: "Gənc Qızıl qələmlər proletar ədəbiyyatının ilk qırlanqıclarının sifəti ilə ortaya çıxarkən Nazim Hikmət bizim imdadımıza yetişdi. Atəşin şeirlərini "Maarif və mədəniyyət" səhifələrində yağdıraraq köhnə ədəbiyyatı modallıqdan çıxartdı və yeni ədəbiyyatın başında durdu. Bu surətlə Türkiyə şairi Nazim Hikmət

li... Yəni yeni, 10-20 il sonra Azərbaycan poeziyasının simasını formalaşdıran şairlər Nazim Hikmətin təsiriylə yazırdılar. Əgər biz bu gün ötən əsrin 20-ci illərinin sonu və 30-cu illərdə Nazim Hikmət və Azərbaycan ədəbiyyatı problemini həll edə bilmiriksə, bu məsələni tamamilə öyrənə bilmiriksə, müasir Azərbaycan ədəbiyyatının tarixi yazıla bilməz. Yazılsa da, bu, ədəbiyyat tarixi olmaz. Bu, kəsinliklə dərk etməmiz gərəkən bir həqiqətdir. O dövrü gərək biləsən və bəhs etdiyimiz bu ensiklopedik xarakterli kitabda bunların işarətləri var. Biz bu gün Nazim Hikməti öyrənmək yolunun başlanğıcındayıq. Bu yolu davam etdirmək lazımdır. Təəssüf ki, bu gün alim hesab edilən şəxslərin Nazim Hikmətlə bağlı müdafiə etdiyi elmi işlərin avtoreferatlarını oxuduğumuz zaman elmi səviyyənin nə qədər aşağı olduğunu və Nazim Hikmət adının istismar olunduğunu görürük - bunların

*Davamı 26-cı səhifədə*

*Əvvəli 25-ci səhifədə*

qarşısı alınmalıdır. Nazim Hikmət elə bir dahidir ki, onunla hazırlıqlı alimlər məşğul olmalı və gənclər özünü buna hazırlamalıdır. Dırnaqarası elmi işlərin müdafiə olunması Azərbaycan elminin səviyyəsinə çox pis təsir edir.

Mən məsələyə həmişə praktik yanaşıram, ona görə düşünürəm ki, bu tədqiqatlar sahəsində Anardır, Aqşin Babayevdir, Tofiq Məliklidir - həyatdaykən onların imkanlarından istifadə etmək, qüvvələri birləşdirərək Nazim Hikmət araşdırmalar mərkəzi yaradılmalıdır. Bunu dəfələrcə qeyd edirəm ki, Azərbaycan türkologiyanın mərkəzi olmalıdır. Türkologiyanı inkişaf etdirmənin siyasi tərəfi də çox qüvvətlidir. Nazim Hikmət körpüdür - Türkiyə ilə türk dünyası, Azərbaycanla Türkiyə arasında və bu körpüdə əsas fiqur biz olmalıyıq. Ola da bilərik. Çünki elmi baxımdan mənim üzərində 15 il işlədiyim "Nazim Hikmət. Poeziya və poetika" kitabı səviyyəsində bir kitab Türkiyədə yoxdur. Dünyada da yoxdur - üzr istəyirəm bunu söylədiyimə görə. Yeni şeirin formalaşmasında Nazim Hikmətin rolunun bizimçün nə boyda əhəmiyyət daşıdığını öyrənməliyik, bilməliyik - o kitabdan başqa yerdə siz onu tapa bilməzsiz. Dərk etmək lazımdır ki, Nazim Hikmət ilk növbədə ədəbiyyat devrimçisidir.

Anarın bu kitabda ürək ağrısı ilə ələ aldığı bir məsələ də var: Əkbər Babayevin arxivinin Azərbaycana gətirilməməsi və ümumiyyətlə, yox olması, qeyri-rəsmi xanımı tərəfindən onun dağıdılması, satılmasıdır. Yüzlərlə, minlərlə imzalanmış kitablar, onun arxiv materiallarının itib batması bizim məsuliyyətsizliyimizin bəhrəsi olduğunu Anar ürək ağrısıyla yazır. Xalıq Koroğlunun arxivi yox oldu, Əziz Şərifin balaca arxivindən başqa heç nəyi qalmadı, yox oldu. Bütün bunları gördüyümə görə, 2 illik zəhmət və fəaliyyətim, Polad Bülbüloğlunun, İsmayıl Sadıqovun və digərlərinin köməyi sayəsində mən arxivimi çətinliklə ədəbiyyat və dil arxivinə təhvil verdim. Biz bu əsərləri bir mərkəzdə cəmləməli və bu cür sanballı əsərlər yazmağa çalışmalıyıq. Bunları etməyincə gələcək nəsillər bizi bağışlamaz.

**Mətanət Vahid:** - "Dünyanın ən hürr kommunisti" olan Nazim Hikmət nə sovet dövlətinin Lenin mükafatına layiq bilindi, nə də Qərbin Nobel mükafatına. "Kərəm kimi" romanında Nazim Hikmətin siyasi görüşləri və yaradıcılığının qarşılaşdırılması məsələsinə kifayət qədər geniş yer ayrılır.

**Tofiq Məlikli:** - Bir kitab nə üçün yazılır? Bir ideyanı, düşüncəni paylaşmaq üçün. Bu kitabın praktik cəhətlərindən biri Nazimi olduğu kimi tanıtmaq idisə, ən vacib məziyyəti ondadır ki, şairin həyatına, poeziyasına, mübarizəsinə dayanaraq müasir insanlara unudulmuş bəzi həqiqətləri xatırladır: doğruluğu, həqiqəti həyatı bahasına olsa da, müdafiə etmək. Ona görə mən kitab haqqındakı yazımı "Kərəm kimi yana bilmək istedadı" adlandırıram. Bu, vacib bir problemdir. Biz gəvəzəlik edib çox böyük məsələlərdən danışa bilərik, amma doğruları müdafiə etmək lazım gələndə bizdə o cəsarət çatmır. Nazim Hikmət inancını həyatı bahasına qorumağın örnəyidir və biz bu kitabda bunu görürük. Çünki hər adam Kərəm kimi yana bilməz. Amma yanmasan, o qaranlıqları da aydınlığa çıxara bilməzsən. Bu kitab bizə bu adi həqiqəti dərk etməyi öyrədir.

Sizin sualınızla bağlı olaraq bir xatirəmi bölüşmək istəyirəm. 1985-ci ildə biz İstanbul Universitetinin bir qrup professoru ilə Daşkəndə konfransa getmişdik. Məlumdur ki, o zaman onların əksəriyyəti öz həmvətənləri Nazimi qəbul etmirdilər və Moskva Universitetində təhsil almış özbək qardaşımız Midhət bəy bizi evinə dəvət etdi. Evində bizimçün, yanımdakı Nazim Hikməti sevməyən həmyerliləri üçün onun şeirlərini oxudu. Osman Sertkaya dedi ki, bizi dəvət etmisən vətən xaininin şeirlərini dinlətmək üçün? Midhətin dediyi söz onların hamısını susdurdu. Dedi ki, biz türkcəni Nazim Hikmət sayəsində sevdik, Türkiyəni onun sayəsində tanıdıq. Ona görə siz onu vətən xaini hesab edirsiz, bizsə onu vətənimizin alnıaçıq siması hesab edirik. Həmin gün yolda gedərkən Türkeş partiyasının aktiv üzvü, millətçi Osman Sertkaya dedi ki, biz döşümüzə döyürük ki, türkçüyük, sən demə, ən böyük türkçü Nazim Hikmət imiş. Onlar yalnız xəyallarında Turanı yaradarkən Nazim Hikmət türkçülüyü Özbəkistanda, Qırğızıstanda, Qazaxıstanda yaşadırdı. Bu baxımdan onun rolunu biz hələ axıra qədər dərk etməmişik.

Yaradıcı prosesi dar çərçivəyə sığdırmaq mümkün deyil. Mən həmişə deyirəm ki, ədəbi proses mütləq diqqət mərkəzində olmalıdır. Çünki ədəbi prosesin içindəki hadisələr ədəbiyyatın gələcəyini müəyyənləşdirir. 60-70 illik ədəbi proses bu kitabda öz əksini tapıb. Ona görə bizim, əlbəttə ki, ona böyük ehtiyacımız var. Amma təəssüflər olsun ki, oxunmur. Bəlkə indi bizim bu söhbətdən sonra yenə 5-10 nəfər onu oxuyacaq. Milli qürurumuz, mənəviyyatımız, türklüyümüz acısından bizim bu kitaba çox böyük ehtiyacımız var.

**Aqşin Babayev:** - Kitaba münasibətdə kütləvi informasiya vasitələrinin rolu olmalıdı. Mən 15 il "Azərbaycan radiosu"na rəhbərlik etmişəm, əvvəllər kitabın təbliği ilə bağlı verilişlər vardı. Siz kitab müzakirəsinə, yəni bu vasitə ilə kitabın təbliğatına yer verdiyiniz üçün qəzetinizə, qəzetin baş redaktoru Azər Turana təşəkkür edirəm.

Qələm dostumuz, hörmətli alim Arif Səfiyevlə tez-tez "Ədəbiyyat qəzeti"ni müzakirə edirik. O gün mən qəzeti bir xeyli təriflədim, dedi ki, bu sözləri ürəyimdən dedin - mən də qəzetin hər nömrəsini oxuyandan sonra atmağa heyfim gəlir, yığılıb üst-üstə. Qəzet, mətbuat bax belə olmalıdı. Belə olmalıdı ki, ordakı faydalı yazıları oxuduqdan sonra saxlamaq istəyəsən. Oxunmamaq boşluğunun qarşısını siz ala bilərsiniz.

**Tofiq Məlikli:** - Əvvəla, mən də bu layihənin çox vacib olduğunu söyləmək istəyirəm. Gərək heç olmasa elmi və ədəbi ictimaiyyət bu əsərlərdən xəbərdar olsun. Təəssüflər olsun ki, bu gün bizim mətbuatımızda kitab təbliğatına yer ayrılmır və şoudan başqa dərdimiz yoxdur. Bu da bizi mənəviyyatsızlığa aparan yolun başlanğıcıdır. Mənəviyyat kitabdan başlayır. Sovet vaxtı Qorkinin bir sözü şüar idi: "Ən yaxşı hədiyyə kitabdır." Onun dəyərini qaldırmaq hamımızın borcudur. Anarın "Kərəm kimi" kitabı və onun kimi bir sürü kitablar çox dəyərlidir və onları diqqət mərkəzində saxlamaq, oxumaq və oxutdurmaq lazımdı. Siz "Ədəbiyyat qəzeti" olaraq örnək olmalısınız. İnanın, Anarın buna ehtiyacı yoxdu. Xeyri var, amma ehtiyacı yox. Oxucunun isə ehtiyacı var dəyərli kitabları oxumağa. Bu baxımdan mən çox şadam ki, bu lazımlı ideyanı həyata keçirirsiz və hər nömrədə olmasını arzu edərəm.

**Mətanət Vahid:** - Sağ olun ki, zaman ayırıb dəyərli bir kitab haqqında dəyərli fikirlərinizi paylaşdınız.

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 25 fevral.- S. 20.**